Xalq qəzeti 2 avqust 2024-cü il, cümə S.11.
SƏRBƏST

# AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI
# QƏRAR

**№ 3-27/3-7-11/2024**

**Bakı şəhəri** **15 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 23 iyun tarixli 3-27/3-7-4/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair texniki tələblər"də və 2023-cü il 6 iyul tarixli 3-27/3-7-6/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi ilə bağlı texniki tələblər"də dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 23 iyun tarixli 3-27/3-7-4/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair texniki tələblər"də və 2023-cü il 6 iyul tarixli 3-27/3-7-6/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi ilə bağlı texniki tələblər"də dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri** **Rəşad Nəbiyev**

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 15 iyul tarixli 3-27/3-7-11/2024 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 23 iyun tarixli 3-27/3-7-4/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair texniki tələblər"də və 2023-cü il 6 iyul tarixli 3-27/3-7-6/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi ilə bağlı texniki tələblər"də dəyişiklik:**

1. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 23 iyun tarixli 3-27/3-7-4/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair texniki tələblər"ə aşağıdakı məzmunda 3.7-1-ci bənd **əlavə edilsin:**

"3.7-1. Proqram təminatının hazırlanması və istismarı zamanı Azərbaycan Respublikası Prezidentinin "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli, "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" 2023-cü il 1 avqust tarixli 2279 nömrəli və "Dövlət orqanlarında (qurumlarında) normayaratma fəaliyyətinin təkmilləşdirilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında" 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli fərmanlarına uyğun olaraq, Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – **EHİS**), EHİS-in Rəqəmsal Sənəd Dövriyyəsi altsistemi (elektron sənəd dövriyyəsi sistemlərinə münasibətdə) və "Normativ hüquqi aktlar" informasiya sisteminə (normayaratma fəaliyyətinin elektron qaydada həyata keçirilməsinə münasibətdə) inteqrasiya imkanı təmin edilməlidir.".

2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 6 iyul tarixli 3-27/3-7-6/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi ilə bağlı texniki tələblər"in 2.13-cü bəndi **aşağıdakı redaksiyada verilsin:**

"2.13. Dövlət informasiya ehtiyatının və sisteminin formalaşdırılması və istismarı zamanı Azərbaycan Respublikası Prezidentinin "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli, "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" 2023-cü il 1 avqust tarixli 2279 nömrəli və "Dövlət orqanlarında (qurumlarında) normayaratma fəaliyyətinin təkmilləşdirilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında" 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli fərmanlarına uyğun olaraq, Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – **EHİS**), EHİS-in Rəqəmsal Sənəd Dövriyyəsi altsistemi (elektron sənəd dövriyyəsi sistemlərinə münasibətdə) və "Normativ hüquqi aktlar" informasiya sisteminə (normayaratma fəaliyyətinin elektron qaydada həyata keçirilməsinə münasibətdə) inteqrasiya imkanı təmin edilməlidir.".